Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# RƏŞİD BEHBUDOV

(Behbudov Rəşid Məcid oğlu)

***Biblioqrafiya***

**Bakı - 2016**

KBT Я19:Щ36+Щ364.13(2А)-8
OUT 016:792.7-057.162(479.24)

Tərtib edəni: **Mədinə Vəliyeva**

İxtisas redaktoru və buraxılışa məsul: **Kərim Tahirov,** *professor, Əməkdar mədəniyyət işçisi*

Redaktor: **Gülbəniz Səfərəliyeva,** *Əməkdar mədəniyyət işçisi*

**Rəşid Behbudov:** biblioqrafiya /M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası; tərt. ed. M.Vəliyeva; ixt. red. və burax. məsul K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2016.- 168 s.

Azərbaycan Milli Kitabxanası nın hazırladığı biblioqrafiyada görkəmli musiqi xadimi, SSRİ Xalq artisti Rəşid Behbudovun əsərləri, həyat və yaradıcılığı haqqında zəngin məlumat toplanmışdır. Vəsaitdə müğənninin həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri də öz əksini tapmışdır. Kitab sənətşünaslar, musiqişünas-alimlər, tədqiqatçılar, kitabxanaçılar, tələbələr və ümumiyyətlə musiqi ilə maraqlanan bütün oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 504 38 5

**© M.F.Axundov adına Milli Kitabxana, 2016**

## Rəşid Behbudovun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2015-ci ilin dekabr ayında dünya şöhrətli musiqi xadimi, görkəmli müğənni və tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Məcid oğlu Behbudovun anadan olmasının 100 illiyi tamam olur.

Rəşid Behbudov Azərbaycanın çoxəsrlik mədəniyyəti tarixinin yetirdiyi böyük simalardandır. Özünəməxsus ifaçılıq tərzinə və həzin lirizm çalarlı ecazkar səsə malik sənətkar təkrarolunmaz yaradıcılığı boyunca sənət aləminə gətirdiyi yeniliklərlə milli musiqi salnaməsini xeyli zənginləşdirmişdir. Çoxşaxəli fəaliyyəti dövründə özünün qurduğu və bu gün də adını daşıyan Azərbaycan Dövlət Mahnı Teatrı mədəniyyətə sanballı töhfə təşkil edir. Rəşid Behbudovun kino aktyoru kimi canlandırdığı unudulmaz obrazlar ölkə kinematoqrafiyasının parlaq səhifələridir. Vətənə və xala son dərəcə bağlı olan sənətkar dünyanın ən məşhur teatr səhnələri və konsert salonlarındakı rəngarəng repertuarlı saysız çıxışları ilə Azərbaycan mədəniyyətinə geniş şöhrət qazandırmışdır.



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafı və təbliği naminə misilsiz xidmətlər göstərmiş qüdrətli sənətkar Rəşid Behbudovun 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi görkəmli musiqi xadimi Rəşid Behbudovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 mart 2015-ci il

## Tərtibçidən

Bu il Azərbaycan mədəniyyətinin inkişafı və təbliği yolunda misilsiz xidmətlər göstərmiş dünya şöhrətli musiqi xadimi, görkəmli müğənni və tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Məcid oğlu Behbudovun anadan olmasının 100 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 mart 2015-ci il tarixli Sərəncamı ilə Rəşid Behbudovun 100 illik yubileyinin geniş şəkildə qeyd olunmas nəzərdə tutulur.

Oxuculara təqdim edilən bu göstəricidə Rəşid Behbudov barədə rəsmi sənədlər, sənətkarın əsərləri, həyat və yaradıcılığı haqqında kitablar, dövri mətbuatda və məcmuələrdə Azərbaycan və rus dillərində çap olunan məqalələr toplanmışdır.

Nəşrlə bağlı arzu və rəylərini bildirəcək hər bir mütəxəssisə və oxucuya əvvəlcədən minnətdarlığımızı bildirir təklif və rəylərini M.F.Axundov adına Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi 57.
**E-mail:** contact@anl.az; URL: www.anl.az



## Rəşid Behbudov – müğənni və aktyor

Azərbaycanın böyük müğənnisi Rəşid Behbudov musiqi mədəniyyəti tarixinə geniş yaradıcılıq ampluasına malik sənətkar kimi daxil olmuşdur. Rəşid Behbudov yaradıcılıq sahələrinin, ifaçılıq xüsusiyyətlərinin araşdırılması onu aktyorluq istedadına malik müğənni kimi səciyyələndirməyə imkan verir. Rəşid Behbudovun yaradıcılıq üslubunda bu iki istedadın qarşılıqlı əlaqələndirilməsi, onun tükənməz yaradıcılıq fantaziyası ilə qovuşdurularaq, qeyri-adi bir sənətkarlıq nəticələri verirdi.

Rəşid Behbudovun yaradıcılıq simasını səciyyələndirərkən onun repertuarını, ifaçılıq üslubunun xüsusiyyətlərini, fəaliyyət sahələrini xarakterizə etmək lazımdır. Bu baxımdan R.Behbudovun yaradıcılığında Azərbaycan və dünya xalqlarının mahnılarının ifası, bəstəkarların mahnı və romansları, klassik opera ariya və ariozoları qeyd olunmalıdır. Zəngin repertuar seçimi, əsərlərin janrından və həcmindən asılı olmayaraq, təfsir xüsusiyyətlərinə eyni ciddiliklə yanaşma R.Behbudovun sənətkarlığını səciyyələndirən cəhətlərdir.

R.Behbudovun yaradıcılığında estrada mahnı sahəsi ilə yanaşı, opera ifaçılığı diqqəti cəlb edir. Bu da onun mükəmməl vokal texnikasına malik olaraq, özünü opera artisti kimi təsdiq etməsindən irəli gəlir. R.Behbudovun musiqili səhnə fəaliyyətində iki əsərdə yaratdığı obrazı mərhələ saymaq olar: Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasında Əsgər obrazı, Fikrət Əmirovun "Sevil" operasında Balaş obrazı.

Adı çəkilən əsərlər müxtəlif dövlərdə yaranmış, müxtəlif yaradıcılıq dəst-xəttinə malik bəstəkarlara məxsusdur, onlar janrına və üslubuna görə fərqlidir. Təbiidir ki, R.Behbudovun təfsirində də bu əsərlərdəki əsas obrazlar özünəməxsus keyfiyyətlər kəsb etmiş və müəyyən dərəcədə əsərin uğurlu səhnə və ekran həllinə şərait yaratmışdır.

Məlum olduğu kimi, Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının ekranlaşdırılması zamanı (1945) Əsgərin partiyası Rəşid Behbudov tərəfindən ifa olunmuş və bu obraz R.Behbudov yaradıcılığında xüsusi əhəmiyyət kəsb etmişdir.

R.Behbudov əsərin baş qəhrəmanı Əsgərin obrazına olduqca həssaslıqla yanaşmış və dinamik xarakterli bir surət yaratmışdır. Əsgərin dərin məhəbbət hissləri, gənclik ehtirası, xoşbəxtlik arzuları R.Behbudov tərəfindən səmimiyyətlə təqdim edilir. Bu rolda o, əsl aktyorluq məharətini və müğənnilik istedadını nümayiş etdirə bilmişdir. R.Behbudovun yaradıcılığında məhz bu cəhətlər qovuşaraq, onun dəst-xəttinin aparıcı xüsusiyyətinə çevrilmişdir.



Bütün dünyada məşhurlaşmış "Arşın mal alan" filmini, Üzeyir Hacıbəyli musiqisini və Rəşid Behbudovun Əsgərini milyonlarla tamaşaçı alqışlamışdır. Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası 49 ölkədə, 120 teatrın səhnəsində oynanılmış, ekranlaşdırıldıqdan sonra isə 130 ölkəyə satılaraq, 186 dilə dublyaj edildi. Rəşid Behbudov öz xatirələrində yazırdı: "Hansı ölkəyə gedirdimsə, görürdüm ki, "Arşın mal alan" məni qabaqlayıb və öz işini görüb. Bu ölkədə məni artıq köhnə bir dost kimi, öz doğma adamları kimi qəbul edirdilər".

Rəşid Behbudovun ekranda yaratdığı arşınmalçı obrazı, eyni zamanda, bir çox ölkələrdəki rejissorları Üzeyir Hacıbəylinin bu əsərinə müraciət etməyə ruhlandırmışdı. Məhz Rəşid Behbudovun ekrandakı surəti 1940-cı illərdən sonra "Arşın mal alan"ın dünyanın bir çox səhnələrində, müxtəlif dillərdə səhnələşdirilməsinə rəvac vermişdi. Onu da qeyd edək ki, konsert səfərləri zamanı Əsgərin mahnı və ariya-

larını Rəşid Behbudov özü bir neçə dildə ifa etməklə bu obrazı milyonlarla tamaşaçıya sevdirmişdi.

Bununla yanaşı, Rəşid Behbudov Əsgər obrazını səhnədə də oynamışdır. 1956-cı illdə R.Behbudov bu obrazı səhnədə də yaratmışdır. 1956-cı ildə Moskvada K.Stanislavski və N.Nemiroviç-Dançenko adına teatrda "Arşın mal alan" səhnəyə qoyulan zaman Rəşid Behbudov baş rolda çıxış etmək üçün dəvət olunmuşdur. Həmin tamaşa böyük müvəffəqiyyət qazanmış Rəşid Behbudov öz gözəl ifası ilə tamaşaçıları heyran etmişdir.

1953-cü ildə Fikrət Əmirovun "Sevil" operası Azərbaycan Dövlət Opera və Balet teatrının səhnəsində tamaşaya qoyuldu. Bu əsərdə Rəşid Behbudovun yaratdığı Balaş obrazı onun opera artisti kimi ilk rolu idi. Əvvəlcə zəngin, təkəbbürlü bir obraz kimi təsvir olunan, sonra isə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr nəticəsində müflisləşmiş təbəqənin bir nümayəndəsi olan Balaş obrazını Rəşid Behbudov xüsusi bir məna dərinliyi ilə yaratmışdır.

Diqqəti çəkən məqamlardan biri də odur ki, F.Əmirov "Sevil" operasını yaradarkən Balaş obrazını məhz R.Behbudovun səsinə və yaradıcılıq imkanlarını nəzərə alıb onun üçün yazmışdı. Azərbaycan opera tarixində belə hal artıq ikinci dəfə təkrar-



lanırdı. Xatırlatmaq yerinə düşərdi ki, vaxtilə Üzeyir Hacıbəyov "Koroğlu" operasını məxsusi olaraq Bülbülün ifası üçün bəstələmişdi. Eyni hal Fikrət Əmirovla Rəşid Behbudovun yaradıcılıq bioqrafiyasında da iz saldı.

Bəstəkarla müğənninin bilavasitə yaradıcılıq təmasından yaranan bu obraz Rəşid Behbudovun sənətkarlığının yeni cəhətlərini üzə çıxardı. Məhz müğənni və aktyorluq qabiliyyətinin qovuşması bu obraza özünəməxsus cizgilər aşıladı. Rəşid Behbudovun yaratdığı Balaş obrazı Azərbaycan opera klassikasının parlaq səhifələrindən birinə çevrildi.

Əlamətdardır ki, 1959-cu ildə Azərbaycan musiqi mədəniyyəti günlərində "Sevil" operası Moskvada Böyük Teatrda oynanılmış, Balaş rolunda Rəşid Behbudov çıxış etmişdi. Həmin nümayişdən sonra Rəşid Behbudov SSRİ Xalq artisti kimi yüksək fəxri ada layiq görüldü.

"Sevil" operası bu gün də səhnədədir. Operanın ifaçılarının neçə nəsli dəyişmişdir. Lakin Rəşid Behbudovun adı məhz bu əsərdə yaratdığı obrazla opera ifaçılığı tarixinə həkk olunmuşdur.

Rəşid Behbudovun yaratdığı Balaş obrazı onun yaradıcılığının yüksək zirvəsi kimi dəyərləndirilsə

də müğənninin opera səhnəsində fəaliyyəti davamlı olmamışdır.

Rəşid Behbudovun ifası üçün xüsusi olaraq yazılmış daha bir səhnə əsərini də qeyd edə bilərik ki, bu da Rauf Hacıyevin "Romeo mənim qonşumdur" operettasıdır. Burada Rəşid Behbudovun yaratdığı Arif partiyasında onun istedadına xas olan estrada xarakterli musiqi ifaçılığı xüsusiyyətləri özünü büruzə verir.

Rəşid Behbudovun geniş ifaçılıq imkanları onun müxtəlif opera partiyalarını ifa etməsinə yol açırdısa da, müğənni estrada səhnəsini üstün tutaraq, bütün diqqətini bu sahəyə yönəldirdi. Lakin bir sıra klassik opera ariyaları onun repertuarına daxil idi. Bunlardan Ü.Hacıbəyovun "Koroğlu" operasından Koroğlunun ariyasını, M.Maqomayevin "Nərgiz" operasından Əliyarın ariyasını, C.Puççininin "Bohema" operasından Rudolfun ariyasını, P.Çaykovskinin "Yevgeni Onegin" operasından Lenskinin ariyasını və s. qeyd edə bilərik ki, konsert səhnəsində o, həmin opera ariyalarını böyük zövqlə ifa etmişdir. Həmin ifalar onun səsyazıları kolleksiyasında və kinolentlərində (məsələn: "Bəxtiyar", "Doğma diyar" filmlərində) qorunub saxlanmışdır.



Rəşid Behbudovun səsyazıları onun ifaçılıq sferalarının fərqli xüsusiyyətlərini üzə çıxarmağa imkan verir. Qeyd etmək lazımdır ki, əgər xalq və bəstəkar mahnılarının ifası zamanı Rəşid Behbudovun səsində muğamdan gələn intonasiya sərbəstliyi və axıcılıq özünü göstərirsə, opera partiyalarının ifasında akademik, belkanto üslubu önə çıxır. Lakin bu zaman da Rəşid Behbudovun özünəməxsus aktyorluq istedadı onun ifaçılıq tərzinə də sirayət edərək, yaratdığı obrazlara canlı həyati cizgilər aşılayır.

Rəşid Behbudov bir müğənni kimi kamera-vokal ifaçılığa üstünlük vermişdir. Bununla belə, onun opera ifaçılığı ilə kamera-vokal ifaçılıq üslubunu müqayisə etsək, onlar arasındakı fərqli cəhətləri müşahidə edə bilərik. Bu, xüsusilə obrazların ən incə detallarla işlənilməsində, əhval-ruhiyyənin yaradılmasında özünü büruzə verir.

Fikrət Əmirov Rəşid Behbudovun ifaçılıq üslubunu qiymətləndirərək yazırdı: "Səsindəki məlahət, aydın, gözəl tələffüz, şirin ləhcə, sənət ehtirası onu dinləyicilərə sevdirən əsas məziyyətlərdir. Onun duruşu, baxışı, hərəkətləri ölçülüb-biçilmiş, düşünülmüşdür. Beləliklə də, ifaçı ilə auditoriya arasındakı səmimiyyət səhnə ilə auditoriya arasında məsafəni

aradan qaldırır, estetik ünsiyyət yaradır. Rəşidin fəaliyyəti bizə müğənninin bəstəkarla iş barədə ciddi mülahizələr söyləməyə imkan verir. Rəşidlə işləyən hər kəs bunu yəqin ki, təsdiq edər. O, səbirli, təmkinli, yorulmaq nə olduğunu bilməyən, gecəni gündüzə qatan, sənətə bütün varlığını verən, bəstəkardan nə istədiyini çox gözəl bilən, bəstəkar fantaziyasını daha çox qanadlandırmağı bacaran bir istedaddır".

R.Behbudovun ifaçılıq üslubundan danışarkən, qeyd etmək lazımdır ki, o, ifa etdiyi əsərlərdə - mahnı, romans, ariya və s. yüksək bədii ustalıqla və qeyri-adi dəqiqliklə məna vurğularını qabardır, müəllif düşüncəsinin dərin qatlarını aça bilir və yaratdığı obrazı canlandırmağı, görümlü etməyi bacarırdı. Onun ifa edərək yaratdığı hər bir mahnı əsl sənət zirvəsinə çevrilirdi.

Müğənnilik və aktyorluq keyfiyyətlərinin qovuşmasını biz R.Behbudovun iştirakı ilə çəkilmiş digər filmlərdə də görürük. Misal olaraq, "Bəxtiyar" (və ya "Sevimli mahnı", "Azərbaycanfilm", 1955), "Min birinci qastrol" ("Azərbaycanfilm", 1975) filmlərini qeyd edə bilərik ki, burada Rəşid Behbudov həm baş rolun ifaçısı, həm də mahnıların ifaçısı kimi çıxış etmişdir. Məhz obrazın xarakterinin açılmasında onun bu iki yaradıcılıq sferasının vəhdəti mühüm əhəmiyyətə malikdir.



Rəşid Behbudovun yaradıcılıq üslubunun əsas keyfiyyətinə çevrilmiş müğənnilik və aktyorluq keyfiyyətlərinin qovuşması onun fəaliyyətinin digər sahələrində də özünü büruzə verir. Rəşid Behbudov tərəfindən "Mahnı teatrı"nın yaradılması bunun bariz nümunəsidir.

"Mahnı teatrı" sintetik teatr sənətinin orijinal bir növü kimi həyata keçirilən ilk təcrübə idi. Burada hər şey ona doğru yönəlmişdi ki, mahnı yalnız dinlənilməsin, həm də görümlü olsun. Başqa sözlə desək, mahnı kiçik musiqili səhnə şəklində təqdim olunur. Mahnıda öz əksini tapmış musiqi obrazı yalnız musiqinin ifadə vasitələri ilə deyil, həm də aktyor oyunu ilə açılır. Əlbəttə ki, mahnının məzmunundan asılı olaraq, bu obraz müxtəlif səciyyə kəsb edir: gah təmkinli, gah ehtiraslı, gah da şən, oynaq. Mahnıdakı əhval ruhiyyənin yaradılmasında təsviri vasitələrdən, səhnə dekorasiyasından, ekranda göstərilən rəngli slaydlardan da istifadə olunur ki, bu da tamaşaçının diqqətini mahnının obrazı üzərində cəmləşdirir və onun təxəyyülünü zənginləşdirir. Bu kimi mahnı səhnələrindən məzmununa və süjet xəttinə görə orijinal bir teatr tamaşası meydana gəlir. Mahnılar

arasında instrumental və xoreoqrafik epizodların verilməsi intermediya xarakteri daşıyır və kontrastlıq əmələ gətirir ki, bu da tamaşaların rəngarəng alınmasına xidmət edir.

Musiqişünas Elmira Abasova yazırdı ki, "Mahnı teatrı"nın yaradılması yeni və qeyri-adi bir ideya olsa da, onun kökləri xalq sənətinin qədim ənənələri ilə bağlıdır. O, "Mahnı teatrı"nın köklərini Azərbaycan xalq sənətkarlığının iki böyük qolu – xalq mahnı və rəqslərilə müşayiət olunan mərasim tamaşaları və aşıq dastanları ilə əlaqələndirirdi.

Ümumiyyətlə, mahnı və rəqslər – Azərbaycan xalq yaradıcılığının ən geniş yayılmış və çox sevilən bir janrı olub, Azərbaycan xalq mərasimlərinin və xalq tamaşalarının əsas tərkib hissəsini təşkil edir. Toy mərasimlərində, Novruz mərasimi ilə bağlı tamaşalarında, teatr sənətinin qədim kökü sayılan meydan tamaşalarında əsl teatrallıq əlamətləri özünü göstərir.

Bu əlamətləri aşıq sənətində də müşahidə edirik. Həqiqətən də aşıqlar – şair, müğənni, nağılçı, çalğıçı sənətlərini özündə qovuşdurur, aşıq yaradıcılığında musiqi, poeziya və teatr kimi incəsənət sahələrinin birləşməsini görürük. Aşıqların yaratdıqları və xalq arasında məclis quraraq söylədikləri



dastanlar geniş həcmli epik rəvayətlər olub, sözün əsl mənasında tam həcmli, ardıcıl dramaturji inkişafa malik bir tamaşa əhəmiyyəti daşıyır. Aşığın saz alətində çalması və oxuması, rəqs etməsi, əsərin süjet xəttini ardıcıllıqla danışması, bütün surətləri təmsil edərək aktyor kimi roldan-rola girməsi "bir aktyorun teatrı" kimi dəyərləndirilə bilər.

Rəşid Behbudovun yaradıcılıq təxəyyülünün məhsulu olan "Mahnı teatrı"nın tamaşalarında da musiqi, poeziya, xoreoqrafiya, teatr sənəti üzvi surətdə qovuşaraq, vəhdət əmələ gətirir. Burada hər bir sözün, hər bir hərəkətin, hər bir detalın müəyyən rakursdan mənalandırılması mühüm bədii əhəmiyyətə malikdir. Şifahi ənənəli xalq sənətinin inceliklərini, çağdaş musiqi teatr sənətinin təmayüllərini dərindən mənimsəyən Rəşid Behbudov özəl xüsusiyyətlərə malik müasir musiqili teatr növü yaratmağa nail olmuşdur.

Rəşid Behbudovun teatrında mahnı yeni bədii ifaçılıq cizgiləri kəsb edir. Bu teatrda səhnələşdirilən mahnıların estetik mənası qabarıq üzə çıxarılaraq dinləyiciyə yeni bir təfsirdə təqdim olunur, müasir həyat lövhələri, dolğun bədii surətlər yaradılır.

"Mahnı teatrı"nın baş qəhrəmanı da Rəşid Behbudov özü idi. O, hər şeydən əvvəl, müğənni və

aktyor kimi öz sənətkarlığını nümayiş etdirirdi. Bundan əlavə isə, o, həm də bir rejissor kimi çıxış edərək, tamaşanın quruluşunu, onun mərhələlərini ardıcıllıqla tənzimləyirdi. Tamaşanın hazırlanması prosesində onun bütün yaradıcılıq fantaziyası, zövqü, biliyi, bacarığı üzə çıxırdı. O, sözün əsl mənasında, öz kollektivi ilə bərabər mahnı tamaşası yaratmağa nail olurdu.

R.Behbudov öz ətrafına əsl peşakarlardan ibarət böyük bir kollektiv toplamışdı. Burada vokal, instrumental və xoreoqrafik qrup təmsil olunmuşdu, müxtəlif amplualı müğənnilər, ənənəvi estrada və milli musiqi alətləri ifaçıları, rəqqaslar fəaliyyət göstərirdi. Xüsusilə kollektivin musiqi rəhbəri, tanınmış pianoçu və bəstəkar Rafiq Babayevin rolu böyük idi. Onun yaratdığı və səsləndirdiyi musiqi öz virtuoz estrada üslubu ilə yanaşı, dərin milli xüsusiyyətləri ilə fərqlənirdi. Ümumiyyətlə, "Mahnı teatrı"nın tamaşalarının tərtibatı da bu ruhda olub, milliliyi və müasirliyi ilə, parlaq teatrallığı ilə yadda qalırdı.

"Mahnı teatrı"nın fəaliyyəti kinematoqrafçıları da ruhlandırmışdı. "Azərbaycanfilm" kinostudiyasında çəkilən "Min birinci qastrol" filmində teatr bütün kollektivi ilə iştirak etməsi, uğurlu bir ekran əsərinin yaranması ilə nəticələndi. Maraqlı süjet



xəttinə malik bu filmdə də baş rolu Rəşid Behbudov canlandırmışdı.

Beləliklə, Azərbaycan mədəniyyətinin parlaq simalarından biri olan Rəşid Behbudovun yaradıcılıq simasının müğənni və aktyor kimi vəhdətdə xarakterizə olunması mühüm əhəmiyyətə malikdir. Xüsusilə R.Behbudovun həm müğənni, həm də aktyor kimi böyük istedad sahibi olması və bu cəhətlərin qovuşması onun bütün yaradıcı fəaliyyət sahələrinə sirayət edərək, yüksək sənət nümunələrini meydana gətirmişdi.

**Məryəm Babayeva,**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

## Rəşid Behbudovun həyat və yaradıcılığının əsas tarixləri

**Rəşid Məcid oğlu Behbudov** 1915-ci il dekabrın 14-də Tiflisdə xanəndə Məcid Behbudalı oğlunun ailəsində dünyaya gəlmişdir.

| | |
|---|---|
| **1933** | - Orta məktəbi bitirmişdir;<br>- Uşaq yaşlarından məktəb xorunda oxumuş, Dəmiryol Texnikumuna daxil olmuşdur;<br>- Təhsili dövründə tələbə özfəaliyyət orkestrində çalışmışdır. |
| **1939** | - Ermənistan Dövlət Opera və Balet Teatrında klassik operaların xor səhnələrində solo oxumuşdur;<br>- Həmin teatrın truppası ilə birlikdə Moskvada Ermənistan incəsənəti günlərində iştirak etmişdir. |
| **1942** | - Kollektivlə birgə Krım cəbhəsinə yollanmışdır;<br>- Ermənistan dövlət caz orkestrinin tərkibində İranda qastrol səfərində olmuşdur. |



| | |
|---|---|
| **1943** | - Bakı kinostudiyasında Üzeyir Hacıbəyovun eyniadlı operettasının motivləri əsasında çəkilən "Arşın mal alan" filmində baş rola dəvət almışdır. |
| **1944** | - Azərbaycan Dövlət Filarmoniyasının yay salonunda konserti olmuşdur. |
| **1945** | - “Arşın mal alan” filmi ekranlara çıxır və çox tez bir zamanda nəinki Azərbaycanda, bütün keçmiş Sovetlər İttifaqında böyük populyarlıq qazanmışdır. |
| **1946** | - “Arşın mal alan” filmdəki Əsgər roluna görə “Stalin mükafatı” ilə təltif olunmuşdur. |
| **1946-1956** | - Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur. |
| **1949** | - Macarıstanın paytaxtı Budapeştdə keçirilən Gənclərin və tələbələrin Ümumdünya festivalında çıxış etmişdir. |

**1951** - “Azərbaycanın Xalq artisti” fəxri adına layiq görülmüşdür.

**1952** - Hindistanda qastrol səfərində olmuşdur;
- Noyabr ayında Çin Xalq Respublikasının yaranmasının 3 illiyi ilə əlaqədar olaraq məşhur və tanınmış sənətkarlardan ibarət nümayəndə heyətinin tərkibində bir ay Çində qastrol səfərində olmuşdur.

**1953-1960** - M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində F.Əmirovun “Sevil” operasında Balaş rolunda çıxış etmişdir;
- Fasilələrlə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur.

**1954** - Oktyabr ayında Finlandiyada qastrol səfərində olmuşdur.

**1955-1963** - Beşinci çağırış Ali Sovetinin deputatı olmuşdur.



**1955** - “Bəxtiyar” filmində Bəxtiyar roluna çəkilmişdir.

**1956** - “Azərbaycan” adlı orkestr yaratmışdır.

**1957** - M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Rəşid Behbudovun rəhbərliyi ilə “Azərbaycan” dövlət konsert ansamblı dövlət statusu almışdır;
- İyul ayının 28-də “Azərbaycan” dövlət konsert ansamblının premyerası olmuşdur;
- Ansambl Moskvada keçirilən VI Ümumdünya gənclər festivalında iştirak etmişdir.

**1957-1959** - Azərbaycan Dövlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri olmuşdur.

**1958** - Brüssel şəhərində təşkil olunmuş ümumdünya sərgisində çıxış etmişdir.

**1959** - “SSRİ Xalq artisti” fəxri adına layiq görülmüşdür;

- Moskvada II Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə iştirak etmişdir;
- İyul ayında Bağdadda qastrol səfərində olmuşdur;
- Afrika qitəsində qastrol səfərində olmuşdur.

**1960** - Hindistanda ikinci dəfə qastrol səfərində olmuşdur.

**1961** - Türkiyədə qastrol səfərində olmuşdur;
- Oktyabr ayında İranda qastrol səfərində olmuşdur.

**1962** - Moldovanın paytaxtı Kişinyovda qastrol səfərində olmuşdur.

**1964** **-** Moskvada "Melodiya" firmasında qrammplastinkası buraxılmışdır.

**1965** **-** Anadan olmasının 50 illiyi qeyd edilmişdir.

**1966** **-** Musiqi və estrada sənətinin caz, balet, pantomima kimi müxtəlif janrla-



rını üzvi surətdə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təşkil etmiş və ömrünün sonunadək onun solisti və bədii rəhbəri olmuşdur.

**1966** **-** "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

**1975** - Anadan olmasının 60 illiyi qeyd edilmişdir.

**1976** **-** SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Lenin ordeni" ilə təltif edilmişdir.

**1980** - "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdür.

**1985** **-** "Xalqlar Dostluğu" ordeni ilə təltif edilmişdir;
- Anadan olmasının 70 illiyi qeyd edilmişdir.

**1989** - İyunun 9-da Moskva şəhərində vəfat etmişdir. Azərbaycanda Fəxri Xiyabanda dəfn edilmişdir.

**1995** - Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr tarixli Sərəncamı ilə 80 illik yubileyi keçirilmişdir.

**2001** - 13 oktyabrda Azərbaycan Prezidenti Heydər Əliyev dahi sənətkarın xatirə gecəsində geniş nitq söyləmişdir.

**2005** - Anadan olmasının 90 illiyi qeyd edilmişdir.

**2015** - 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır.



## Görkəmli şəxsiyyətlər Rəşid Behbudov haqqında

Rəşid Behbudov nadir bir insandır, nadir şəxsiyyətdir. Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır.

***

Mən Rəşid Behbudovun sənətinə, onun səsinə vurğunam və bütün ötən illər onun mahnıları, onun ifa etdiyi gözəl rollar, onun gözəl səsi məni həmişə heyran edibdir. Rəşid Behbudov mərhum Tofiq Quliyev ilə birlikdə Azərbaycanda ilk estrada mahnılarının yaradıcısı olubdur. Deyə bilərəm ki, Rəşid Behbudov dünyanı dolaşmış ilk Azərbaycan müğənnisidir, musiqiçisidir. İkinci bələsi olmayıbdır.

**Heydər Əliyev,**
*ümummilli lider*

Rəşid Behbudov Azərbaycanın çoxəsrlik mədəniyyəti tarixinin yetirdiyi böyük simalardandır. Özünəməxsus ifaçılıq tərzinə və həzin lirizm çalarlı ecazkar səsə malik sənətkar təkrarolunmaz yaradıcı-

lığı boyunca sənət aləminə gətirdiyi yeniliklərlə milli musiqi salnaməsini xeyli zənginləşdirmişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Rəşid Behbudovun milli sərvət duyğusu o qədər hərarətli və qadirdir ki, o yalnız xalq mahnılarının, estradamızın klassiki yox, professional klassik musiqimizin də həmişə canlı olacaq klassikidir.

***

Rəşid Behbudov bütün hissiyyatı ilə milli sənətkar idi və buna görə də onun sənəti milli sərhədlər tanımırdı.

**Elçin Əfəndiyev,**
*Xalq yazıçısı*

Rəşid Behbudov təkrarsız ifadəsi, qəlbləri ovsunlayan səs tembri, sənətə olan sonsuz sevgisi ilə ölməzlik qazanmışdır.

***

Xalq musiqisinə hörmət və məhəbbət ruhunda tərbiyə almış Rəşid Behbudov professional sənətin zirvələrinə qədər ucalmış, Azərbaycanın ən tanınmış və ən qüdrətli sənətkarları sırasında layiqli yer tut-



muşdur. Sənətə vurğunluğu, qüdrətli səsi, təkrarolunmaz səs tembri, dərin musiqi duyumu, yüksək səhnə mədəniyyəti onu Azərbaycan estrada ifaçılığı sənətinin bir növ rəmzinə çevirmişdir.

**Polad Bülbüloğlu,**
*Xalq artisti*

Rəşid Behbudov köhnə mahnılara təzə rəng vermiş, onlara müasirlik gətirmiş, xalqın sərvətini başqa şəkildə özünə qaytarıbmış... Demək köhnəyə yeni münasibət bu imiş! Əsil böyük və novator sənətin yolu da elə bu imiş!

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Xalqımızın zəngin musiqi ənənələrinə əsaslanan, vokal sənətimizi novatorcasına inkişaf etdirib yeni mərhələyə qaldıran Rəşid Behbudov xalqlar dostluğunu, bəşəri məhəbbəti tərənnüm edə-edə sənət aləmində qocaman çinar timsalına dönmüşdü.

**Tofiq Quliyev,**
*bəstəkar*, *Xalq artisti*

Böyük müğənninin yüksək professional və orijinal sənətkarlığı bu gün də ən müxtəlif zövqlü saysız-hesabsız tamaşaçının diqqətini cəlb edir. Bəli, Azər-

baycan incəsənətinə beynəlxalq miqyasda böyük hörmət və nüfuz qazandırmış Rəşid Behbudovun qüdrətli sənəti onu dünya xalqlarının sevimlisinə çevirmişdir.

**Elmira Abbasova,**
*professor - musiqişünas*

Sevimli sənətkarımızın Azərbaycan şəlalələrinin şırıltısı kimi könül açan ecazkar səsinin xoş sədası hələ bundan sonra da neçə-neçə ürəkləri fəth edəcəkdir.

**Lütfiyar İmanov,**
*Xalq artist*

Рашид Бейбутов уникальный человек, редкая личность. Он неподражаемый деятель искусства в истории азербайджанской культуры.

***

Появившись на азербайджаской сцене, Рашид Бейбутов сразу же снискал большое уважения и славу. Все это, естественно, связано, прежде всего, с его врожденным талантом. В народе это называют даром Божъим, так как обладание на таком высоком уровне одним человеком множеством прекрасных качеств редчайший



случай. Поэтому Рашид Бейбутов, будучи одной из самых драгоценных жемчужин азербайджанской культуры, навечно останется в истории нашего народа.

**Гейдар Алиев,**
*Общенациональный лидер*

Рашид Бейбутов - это лицо культуры современного Азербайджана.

**Ильяс Эфендиев,**
*Народный писатель Азербайджана*

Я считаю его Великим гражданином нашей планеты, Великим гражданином Советского Союза и Великим гражданином Азербайджана. Он обладал удивительным голосом, удивительным музыкальным обаянием, внешним обаянием. Я знаю, что к нему на концерты попасть было невозможно. Я счастлив, что первым исполнителем моих песен был именно он.

**Владимир Шаинский,**
*Народный артист СССР*

Бейбутов – это уникальное явление нашей советской и русской культуры. Он обладал неповторимым талантом, сочетая в себе выдающе-

гося вокалиста и блестяще тонкого драматического артиста.

**Оскар Фельцман,**
*Народный артист СССР*

Его обожали все - от мало до велика. Все его обожали! Я был влюблен в него и боготворил. И это чудо неповторимое.

**Николай Сличенко,**
*Народный артист СССР*



## Rəsmi sənədlər

### 1946

**1. 1945-ci ildə incəsənət və ədəbiyyat sahəsində görkəmli əsərlər üçün Stalin mükafatları verilməsi haqqında:** SSR İttifaqı Nazirlər Sovetinin qərarı: Bədii kinematoqrafiya sahəsində: [Rəşid Behbudov – "Arşın mal alan" kinofilminə görə] //Ədəbiyyat qəzeti.- 1946.- 3 iyul.- S.1-2.

### 1951

**2. Rəşid Məcid oğlu Behbudova Azərbaycan SSR Xalq artisti fəxri adı verilməsi haqqında**: Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı, 20 iyun 1951-ci il //Ədəbiyyat qəzeti.- 1951.- 26 iyun.

### 1959

**3. Azərbaycan SSR incəsənət işçilərinə SSRİ Xalq artisti fəxri adı verilməsi haqqında**: SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı, 9 iyun 1959-cu il: [Rəşid Məcid oğlu Behbudova] //Kommunist.- 1959.- 10 iyun; Ədəbiyyat və incəsənət.- 1959.- 13 iyun.- S.1.

**1966**

**4. R.M.Behbudov yoldaşın "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilməsi haqqında:** SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı //Kommunist.- 1966.- 2 fevral.

**1976**

**5. SSRİ Xalq artisti R.M.Behbudovun "Lenin ordeni" ilə təltif edilməsi haqqında:** SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı //Kommunist.- 1976.- 7 yanvar; Ədəbiyyat və incəsənət.- 1976.- 10 yanvar.

**1980**

**6. SSRİ Xalq artisti R.M.Behbudova "Sosialist Əməyi Qəhrəmanı" adı verilməsi haqqında**: SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı, 23 aprel 1980-cı il //Kommunist.- 1980.- 24 aprel; Ədəbiyyat və incəsənət.-1980.-25 aprel.-S.1.

**1985**

**7. R.M.Behbudov yoldaşın "Xalqlar Dostluğu" ordeni ilə təltif edilməsi haqqında:** SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı, 13 dekabr 1985-ci il //Kommunist.- 1985.- 14 dekabr.-S.1; Ədəbiyyat və incəsənət.- 1985.- 20 dekabr.- S.1.



**1995**

**8. Rəşid Behbudovun 80 illik yubileyinin keçirilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 oktyabr 1995-ci il //Azərbaycan.- 1995.- 20 oktyabr.-S.1.

**2015**

**9. Rəşid Behbudovun 100 illik yubileyinin keçirilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 mart 2015-ci il //Azərbaycan.- 2015.- 19 mart.- S.6.

## Əsərləri

**1952**

**10. Uzaq Hindistanda** /Rəşid Behbudov; [red. Y.Məmmədov].- Bakı: Uşaqgəncnəşr, 1952.- 52, [4] s.

## Dövri mətbuatda və məcmuələrdə çap olunan məqalələri

**1951**

**11. Azərbaycan incəsənət işçilərinin əsas borcu**: [Azərbaycan K(b)P-nın XVIII qurultayı ilə əlaqədar] /Rəşid Behbudov //Kommunist.- 1951.- 8 iyul.

**12. Səmimi məhəbbət**: [Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti dekadası haqqında] /Rəşid Behbudov //Kommunist.- 1951.- 6 yanvar.

**1952**

**13. Hindistan xatirələri** /Rəşid Behbudov //Azərbaycan gəncləri.- 1952.- 27, 29, 31 avqust.

**1955**

**14. Bir ay Finlandiyada**: [müəllifin səfər təəssüratı] /Rəşid Behbudov //Kommunist.- 1955.- 30 yanvar.



**1963**

**15. Həyat və istedad**: [musiqi əsərləri haqqında] /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1963.- 20 iyul.

**16. İran Sovet Azərbaycanının incəsənətini alqışlayır**: [müəllifin İran səfəri ilə əlaqədar müsahibəsi] /Rəşid Behbudov //Kommunist.- 1963.- 8 mart.

**17. Üç görüş**: [müəllifin N.S.Xruşovla görüşü haqqında] /Rəşid Behbudov //Kommunist.- 1964.- 17 aprel.

**1965**

**18. Tarla nəğməsi** /Rəşid Behbudov //Şərq qapısı.- 1965.- 21 mart.

**19. Ürəklərimiz sizin üçün açıqdır**: [Azərbaycanda Moldav mədəniyyəti həftəsi haqqında] /Rəşid Behbudov //Bakı.- 1965.- 10 sentyabr.

**1966**

**20. Lenin komsomoluyam**: [şeir] /Rəşid Behbudov //Şərq qapısı.- 1966.- 21 yanvar.

**21. R.Behbudovun yekun çıxışı**: [müəllifin İrandakı qasrtol konsertinin yekunu və onun müğənnilik məharəti haqqında] /Rəşid Behbudov //Kommunist.- 1966.- 15 fevral.

## 1968

**22. Mahnılar əsərlərlə yaşayır**: [Azərbaycan bəstəkarlarının III qurultayı haqqında] /Rəşid Behbudov //Bakı.- 1968.- 29 oktyabr.

## 1969

**23. Səni tərənnüm edirəm, doğma Azərbaycanım**: [Azərbaycan Dövlət Mahnı Teatrı haqqında] /Rəşid Behbudov //Bakı.- 1969.- 28 aprel.

## 1971

**24. Azərbaycan Dövlət Mahnı Teatrı**: [teatrın direktoru R.Behbudovla müsahibə] /Rəşid Behbudov; müsahibəni apardı V.Nəsib //Qobustan.- 1971.- №4(12).- S.22-24.

## 1972

**25. Qəlblərdə yaşayan müğənni**: RSFSR və incəsənəti günləri: [müğənni Lyudmila Zıkina haqqında] /Rəşid Behbudov //Kommunist.- 1972.- 3 oktyabr.

## 1973

**26. Mahnılarla Latın Amerikası ölkələrinə**: [müəlliflə müsahibə] /Rəşid Behbudov //Kommunist.- 1973.- 13 noyabr.



**27. Musiqimizin fəxri**: [bəstəkar Fikrət Əmirov haqqında] /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1973.- 17 mart.- S.5.

## 1975

**28. Dildən-dilə gəzəcəkdir** /Rəşid Behbudov //Bakı.- 1975.- 1 oktyabr.

**29. Üzeyir sənətinə məhəbbətlə**: Üzeyir Hacıbəyov – 90 /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1975.- 21 noyabr.- S.5.

## 1977

**30. Yeni mahnılar gözləyirik**: [bəstəkar Tofiq Quliyevin anadan olmasının 60 illiyi münasibətilə] /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1977.- 19 noyabr.- S.3.

## 1978

**31. Azərbaycan mahnıları Britaniya adalarında**: [Azərbaycan incəsənət ustalarının İrlandiya, Şotlandiya, Uels və İngiltərəyə qastrol səfəri haqqında] / Rəşid Behbudov //Bakı.- 1978.- 22 noyabr.

**32. Böyük ilhamla, məhəbbətlə...**: [Bakının “Lenin ordeni” ilə təltif edilməsi münasibətilə] /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1978.- 30 sentyabr.- S.3.

**33. Nəğmə dostluq körpüsüdür**: ["Mahnı teatrı"nın İngiltərəyə qastrolu haqqında müəllifin təəssüratı] /Rəşid Behbudov //Kommunist.- 1978.- 12 dekabr.

**34. Nəğmələrlə eldən-elə**: [Azərbaycan Dövlət Mahnı Teatrının bədii rəhbəri ilə müsahibə] /Rəşid Behbudov //Bakı.- 1978.- 25 yanvar.

### 1980

**35. Mahnılarımız ərməğandır**: [Özbəkistanda Azərbaycan SSR günləri münasibətilə] /Rəşid Behbudov //Bakı.- 1980.- 3 iyun.

**36. Nəğmələr qatar-qatar**: [Özbəkistanda Azərbaycan SSR günləri münasibətilə] /Rəşid Behbudov //Kommunist.- 1980.- 4 iyun.

**37. Sevinc nəğməsi**: [Azərbaycanın X keçici Qırmızı bayraq alması münasibətilə] /Rəşid Behbudov //Kommunist.- 1980.- 19 fevral.

### 1982

**38. Bizə sevinc bəxş etdiniz**: [SSRİ Dövlət Akademik Böyük Teatrının Bakı qastrolları haqqında] /Rəşid Behbudov //Kommunist.- 1982.- 10 iyun.

### 1983

**39. Pakistana xeyirxah səfər**: [müəllifin səfər təəssüratı] /Rəşid Behbudov; ədəbi cəhətdən işləyəni M.Peyzel //Bakı.- 1983.- 20, 21, 22 iyun.



### 1985

**40. Qırx ildir ki...**: [Üzeyir Hacıbəyovun anadan olmasının 100 illiyi münasibətilə] /Rəşid Behbudov //Azərbaycan.- 1985.- №9.- S.10.

**41. Musiqimizi böyükmiqyaslı görmək arzusundayam"**: [anadan olmasının 70 illiyi münasibətilə müəlliflə müsahibə] /Rəşid Behbudov; söhbəti yazdı N.Həsənəliyev //Ədəbiyyat və incəsənət.- 1985.- 13 dekabr.- S.5.

**42. Onun sənət sehri**: Üzeyir Hacıbəyov – 100 /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1985.- 4 oktyabr.- S.4.

**43. Radionun səslər xəzinəsindən**: [görkəmli sənət adamları Ü.Hacıbəyov haqqında] /D.Şostakoviç, T.Xrennikov, Ş.Ramazanov, Rəşid Behbudov //Qobustan.- 1985.- №3.- S.10-12.

### 1986

**44. Məhəbbətin əks-sədası**: Səməd Vurğun – 80 /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1986.- 24 oktyabr.- S.5.

**45. Sənətin gücü** /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1986.- 5 sentyabr.- S.3.

### 1987

**46. Ustad**: **Bülbül – 90** /Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1987.- 19 iyun.- S.5.

**1989**

**47. Xoşbəxt tale, amansız tale**: [SSRİ Xalq artisti ilə son müsahibə] /Rəşid Behbudov; söhbəti yazdı Z.Rüfətoğlu //Kommunist.- 1989.- 14 iyun.

**1990**

**48. Üzeyir sənətinə məhəbbətlə**: [Üzeyir Hacıbəyov haqqında xatirələri] /Rəşid Behbudov //Üzeyir Hacıbəyov haqqında seçilmiş xatirələr və məqalələr /tərt. Ə.İsazadə.- Bakı, 1990.- S.25-27.

**2004**

**49. Böyük maestro**: [SSRİ Xalq artisti Bülbül haqqında] /Rəşid Behbudov //Bizim Bülbül – dünyanın Bülbülü.- Bakı, 2004.- S.28-29.

**2005**

**50. Üzeyir sənətinə məhəbbətlə**: [Üzeyir Hacıbəyovun 120 illiyi ilə əlaqədar] /Rəşid Behbudov //Şuşa.- 2005.- №11, noyabr.- S.6.



# Rəşid Behbudovun həyat və yaradıcılığı haqqında

## Kitablar

**2010**

**51. Babayeva, M.** Rəşid Behbudovun ifaçılıq üslubu milli və klassik vokal ənənələrinin sintezi kontekstində: sənətşün. üzrə fəls. d-ru al. dər. a. üçün təq. ol. dis.-nın avtoreferatı: 17.00.02 /Məryəm Babayeva; Azərb. Resp. Təhsil Nazirliyi, Ü.Hacıbəyli ad. Bakı Musiqi Akad.- Bakı, 2010.- 26 s.

**52. Babayeva, M.** Rəşid Behbudovun ifaçılıq üslubu milli və klassik vokal ənənələrinin sintezi kontekstində: fəls. d-ru al. dər. a. üçün təq. ed. dis.: 17.00.02 /Məryəm Babayeva; Azərb. Resp. Təhsil Nazirliyi, Ü.Hacıbəyli ad. Bakı Musiqi Akad.- Bakı, 2010.- 128 s.

**53. Dünya, mənə nəyin qaldı**: (metodik vəsait-): Xalq artisti Rəşid Behbudovun anadan olmasının 95 illik yubileyi münasibətilə /tərt. ed. Könül Səmədzadə; red. Fizurə Quliyeva; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2010.- 14 s.

**2012**

**54. Abdin, T.** Onların dünəni: Publisistika - 1 /Tofiq Abdin; red. E.İsgəndərzadə.- Bakı: Vektor, 2012.- 247, [1] s.

*Kitabdan:* Sadəcə Rəşid Behbudov [S.163-170].

**55. Babayeva, M**. Rəşid Behbudovun sənətkarlığı: ali musiqi məktəbləri üçün dərs vəsaiti /Məryəm Babayeva; elmi red. R.Zöhrabov; rəy.: S.Kərimi [və b.]; Azərb. Resp Təhsil Nazirliyi, Azərb. Milli Konservatoriyası.- Bakı: [Xəzər Universiteti], 2012.- 169, [1] s.

*Kitabın içindəkilər:* Rəşid Behbudovun yaradıcılıq yolunun mərhələləri; R.Behbudovun səs tembri və vokal üslubu; Xalq mahnılarının ifaçılıq tərzi; Bəstəkar mahnılarının ifaçılıq üslubu; R.Behbudovun müğənni və aktyor kimi fəaliyyəti.

**2015**

**56. Elçin.** Mən gedirəm, ağlama...: Rəşid Behbudovun sənəti və şəxsiyyəti /Elçin; Mədəniyyət və Turizm Nazirliyinin Miniatür Kitab Muzeyi.- Bakı: İndiqo, 2015.- 136 s.

**57. “Səni tərənnüm edirəm doğma Azərbaycanım! Rəşid Behbudov”**.- Azərbaycan-İrs: Xüsusi buraxılış.- Bakı, 2001.- № 8.- 136 s.



**58. Üzeyir Hacıbəyli (1885-1948): Azərbaycan klassik musiqisinin banisi, 130 il** [İzomaterial]: “Rəşid Behbudov (1915-1989): Əfsanəvi Azərbaycan müğənnisi, 100 il”: [20 poçt markası].- [ABŞ]: [s. n.], [2015?].- [2] ayrı v. 20 poçt markası.- portr., not .-15x22 sm.

## Dövri mətbuatda və məcmuələrdə çap olunan məqalələr

**1946**

**59. Azərbaycan Sovet Yazıçılarının təbriki**: [Stalin mükafatı almış Ü.Hacıbəyov, Q.Qarayev, Rəşid Behbudov və başqalarına yazıçıların təbriki] //Ədəbiyyat qəzeti.- 1946.- 3 iyul.- C.1.

**1951**

**60. Rəşid Behbudova Azərbaycanın Xalq artisti adının verilməsi haqqında** //Ədəbiyyat qəzeti.- 1951.- 26 iyun.

**1952**

**61. Babayev, N.** Rəşid Behbudov /N.Babayev //Azərbaycan gəncləri.- 1952.- 20 iyul.- S.3.

**1954**

**62. Behbudov R.** //Azərbaycanın teatr və kino ustaları /tərt. ed. Ü.Hüseynov.- Bakı, 1954.- S.17.

**1955**

**63. Yusif, Q.** Xalq müğənnisi /Q.Yusif //Ədəbiyyat və incəsənət.- 1955.- 13 avqust.



**1959**

**64. SSRİ Xalq artistləri:** Rəşid Behbudov //Ədəbiyyat və incəsənət.- 1959.- 13 iyun.- S.1.

**1960**

**65. Dostluq və qardaşlıq mahnıları**: [Tofiq Quliyev və Rəşid Behbudovun yeni yaradıcılıq əlaqələri haqqında] //Ədəbiyyat və incəsənət.- 1960.- 3 dekabr.

**1961**

**66. Rəşid Behbudovun konsertləri:** [müğənninin qastrol səfərindəki repertuarı] //Ədəbiyyat və incəsənət.- 1961.- 22 iyul.

**67. SSRİ Xalq artisti Rəşid Behbudova açıq məktub**: [Naxçıvan Muxtar Respublikasının bir qrup əmək adamlarının müğənninin Naxçıvana dəvət etmələri ilə əlaqədar] /F.Bayramov B.Talıbova; X.Bayramova; A.Mirişli //Şərq qapısı.- 1961.- 22 sentyabr.

**1963**

**68. Əsədov, B.** Xalq artisti xalq arasında: [Rəşid Behbudovun Kirovabad (Gəncə) Alüminium zavodunda verdiyi konsert haqqında] /B.Əsədov //Kommunist.- 1963.- 25 avqust.

**69. İran Sovet Azərbaycanının incəsənətini alqışlayır**: [Rəşid Behbudovun İran səfəri haqqında] //Kommunist.- 1963.- 6 mart.

**70. Müğənninin böyük müvəffəqiyyəti**: [Rəşid Behbudovun İran səfəri haqqında] //Ədəbiyyat və incəsənət.- 1963.- 2 fevral.

**71. Səfərov, C.** Xalq müğənnisi /C.Səfərov //Ədəbiyyat və incəsənət.- 1963.- 16 mart.

**1964**

**72. Mahnı pərvaz edir**: [R.Behbudovun Vladivostokda Uzaq Şərqin gənc balıqçılarının toplanışında çıxışı haqqında] //Kommunist.- 1964.- 12 aprel.

**1965**

**73. Rəşid Behbudovun İrana yeni səfəri** //Bakı.- 1965.- 24 noyabr.

**1966**

**74. Bədəlbəyli, Ə.** Mahir müğənni: [Rəşid Behbudovun SSRİ Ali Sovetinə deputatlığa namizəd göstərilməsi haqqında] /Ə.Bədəlbəyli //Ədəbiyyat və incəsənət.- 1966.- 21 may.

**75. Ələkbərov, M.** Dünya şöhrəti qazanmış müğənni /M.Ələkbərov //Şərq qapısı.- 1966.- 22 may.



**76. Hacıyev, Ə.** Məşhur müğənniyə məftunluqla /Ə.Hacıyev //Azərbaycan gəncləri.- 1966.- 28 yanvar.

**77. Kərimov, Y.** Musiqimiz ürəkləri fəth edir: [Tehranda səfərdə olan Rəşid Behbudovla telefon söhbəti] /Y.Kərimov //Bakı.- 1966.- 4 fevral.

**78. Mahnıların qanadında**: [Rəşid Behbudovun rəhbərliyi ilə Azərbaycanın bir qrup incəsənət xadiminin İrana qastrol səfəri haqqında] //Bakı.- 1966.- 17 fevral.

**79. Mehdiyev, E.** Oxu, eloğlu, oxu! /E.Mehdiyev //Şərq qapısı.- 1966.- 5 iyun.

**80. Nikitin, V.** Rəşid Behbudov Hindistanda /V.Nikitin //Kommunist.- 1966.- 4 may.

**81. Popov, V.** Behbutov İstambulu valeh etmişdir /V.Popov //Kommunist.- 1966.- 10 aprel.- S.7.

**82. Rəşid Behbudovun konserti**: [İran səfəri haqqında] //Kommunist.- 1966.- 30 yanvar.

**1968**

**83. Gündüz.** Səhnələşdirilmiş mahnılar: [Dövlət Mahnı Teatrı və onun solisti Rəşid Behbudov haqqında] /Gündüz //Ədəbiyyat və incəsənət.- 1968.- 10 fevral.- S.3.

**84. Kərimov, İ.** Oxu Rəşid qoy səsin... /İ.Kərimov //Bakı.- 1968.- 29 yanvar.

**85. Kərimova, E.** “Səni tərənnüm edirəm, doğma Azərbaycanım!”: [Rəşid Behbudovun Mingəçevir səfəri haqqında] /E.Kərimova //Mingəçevir işıqları.- 1968.- 4 iyun.

**86. Qazıbəyov, R.** Oxu, Rəşid, qoy səsin daha qüdrətli olsun: [Dövlət Mahnı Teatrı haqqında] /R.Qazıbəyov //Şərq qapısı.- 1968.- 19 iyun.

**87. Musayev, E.** Xoş gördük, nəğməkar, xoş gördük, Azərbaycan!: [yeni təşkil edilmiş Dövlət Mahnı Teatrı və onun solisti R.Behbudov haqqında] /E.Musayev //Azərbaycan gəncləri.- 1968.- 27 yanvar.

**88. Rəşid Behbudov Naxçıvanda** //Sovet kəndi.- 1968.- 22 iyun.

**1970**

**89. Şuşinski, F.** Rəşid Behbudov //F.Şuşinski. Azərbaycan xalq musiqiçiləri.- Bakı, 1970.- S.218.

**1971**

**90. Azərbaycan mahnıları Şimali Qafqazda**: [R.Behbudovun Dağıstan MSSR Xalq artisti fəxri adının verilməsi haqqında] //Kommunist.- 1971.- 14 iyul.

**91. Dadaşzadə, A.** Rəşid Behbudov və onun “Dövlət Mahnı Teatrı” /A.Dadaşzadə //Qobustan.- 1971.- №4(12).- S.20-22.



**92. R.Behbudov Dağıstanın Xalq artistidir** //Bakı.-1971.- 25 avqust.

**93. Ramazanzadə, F.** ...Dilə gəlsin nəğmədə həyat /F.Ramazanzadə //Bakı.- 1971.- 20 yanvar.

**94. Razi, H.** Sənətin zirvəsində: [SSRİ Xalq artisti R.Behbudovun “Dövlət Mahnı Teatrı”nın Naxçıvan səfəri haqqında] /H.Razi //Şərq qapısı.- 1971.- 19 iyun.

**95. Zöhrabov, R**. Görüləsi işlər çoxdur: [Rəşid Behbudovun “Dövlət Mahnı Teatrı” haqqında] /R.Zöhrabov //Qobustan.- 1971.- №4(12).- S.17-19.

**1972**

**96. Məhərrəmoğlu.** Azərbaycan sənətkarları – SSRİ Xalq artistləri. Bu adı harada eşitsəniz: [Mirzağa Əliyev, Mərziyə Davudova, Sidqi Ruhulla, Adil İsgəndərov, Hökümə Qurbanova, Ələsgər Ələkbərov, Qəmər Almaszadə, Niyazi, Leyla Vəkilova, Fikrət Əmirov, Firəngiz Əhmədova, Rəşid Behbudov haqqında] /Məhərrəmoğlu //Qobustan.- 1972.- №3(15).- S.52-57.

**1973**

**97. Ramazanzadə, F.** ...Dilə gəlsin nəğmədə həyat: [R.Behbudov haqqında] /F.Ramazanzadə //Azərbaycan.- 1973.- №12.- S.148-149.

**1974**

**98. Quliyev, R.** Mahnıların qanadında /R.Quliyev //Ulduz.- 1974.- №1.- S.46-49.

**99. Səməd, M.** İllər, sizdə nəyim qaldı? /M.Səməd //Ulduz.- 1974.- №12.- S.17-21.

**100.Tağızadə, Ş.** "1001-ci qastrol": ["Azərbaycanfilm" kinostudiyası tərəfindən çəkilən Rəşid Behbudovun sənət yolundan bəhs edən eyniadlı film haqqında] /Ş.Tağızadə //Bakı.- 1974.- 20 iyul.

**1976**

**101.Əbdürrəhmanov, N.** Sənətin odunda yanasan görək: [R.Behbudov haqqında] /N.Əbdürrəhmanov //Bakı.- 1976.- 4 fevral.

**102.Əkbərov, Z.** Sənətin odunda yanasan gərək: [R.Behbudov haqqında] /Zakir Əkbərov //Bakı.- 1976.- 4 fevral.

**103.Əliyev, V.** Oxuyur Rəşid Behbudov /V.Əliyev //Sovet Gürcüstanı.-1977.-1 dekabr.

**104.Əmirov, F.** Sənətin odunda yanasan gərək: [R.Behbudov haqqında] /Fikrət Əmirov //Bakı.- 1976.- 4 fevral.

**105.Məmmədov, A.** Ustad müğənni /A.Məmmədov //Ədəbiyyat və incəsənət.- 1976.- 10 yanvar.- S.2-3.



**106.Rəhimli, İ.** Nəğmələrlə döyünən ürək: ["Dövlət Mahnı Teatrı" haqqında] /İ.Rəhimli //Kommunist.- 1976.- 14 yanvar.

**107.Səməd, M.** Portret eskizləri: [R.Behbudov haqqında] /M.Səməd //Azərbaycan gəncləri.- 1976.- 17 yanvar.

**1977**

**108.Azərbaycan artistlərinin müvəffəqiyyəti**: [Gürcüstan SSR Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə Rəşid Behbudova Gürcüstan SSR Əməkdar incəsənət xadimi adının verilməsi haqqında] //Kommunist.-1977.-18 dekabr.-S.4.

**109.Əliyev, V.** Oxuyur Rəşid Behbudov /V.Əliyev //Sovet Gürcüstanı.- 1977.- 1 dekabr.

**1978**

**110.Abbasova, E.** "Səni tərənnüm edirəm, doğma Azərbaycan!": [R.Behbudova Respublika Dövlət mükafatına təqdim olunması haqqında] /E.Abbasova //Ədəbiyyat və incəsənət.- 1978.- 8 aprel.- S.2.

**111.Respublika Dövlət mükafatı laureatları – 78**: [Rəşid Behbudova və bir qrup elm xadiminə Respublika Dövlət mükafatının təqdim olunması haqqında] //Ədəbiyyat və incəsənət.-1978.- 6 may.- S.4.

## 1979

**112.İlyasov, H.** Rəşid oxuyur: [şeir] /H.İlyasov //Sovet Gürcüstanı.- 1979.- 31 iyul.

**113.Qasımov, İ.** Mahnı, mahnı və yenə mahnı: [R.Behbudov haqqında] /İ.Qasımov //Ədəbiyyat və incəsənət.- 1979.- 21 sentyabr.- S.2-3.

**114.Mahnılarımız İsveçdə səslənir**: [R.Behbudovun rəhbərlik etdiyi Dövlət Mahnı Teatrının İsveç səfəri haqqında] //Bakı.- 1979.- 21 noyabr.

**115.Rəşid Behbudovun kənd marşrutları** //Kommunist.- 1979.- 21 iyul.

**116.Rəşidzadə, L.** Oxu, "qoca" Rəşid! /L.Rəşidzadə //Sovet kəndi.- 1979.- 7 avqust.

## 1980

**117.Abbasova, E.** Xoş xəbərlər müjdəsi: [SSRİ Xalq artisti Rəşid Behbudova "Sosialist Əməyi Qəhrəmanı" adı verilməsi haqqında] /E.Abbasova //Kommunist.- 1980.- 24 aprel.

**118.Abdin, T.** Rəşid Behbudov: (etüd) /Tofiq Abdin //Qobustan.-1980.-№1-2.-S.92-94.

**119.Arifov, A.** Azərbaycan: Rəşid Behbudova: [şeir] /A.Arifov; özbəkcədən çevirəni B.Vahabzadə //Ulduz.- 1980.- №11.- S.43-44.



**120.Əmirov, F.** Şan-şöhrətli sənətkar: [Rəşid Behbudova "Sosialist Əməyi Qəhrəmanı" adı verilməsi münasibətilə] /F.Əmirov //Bakı.- 1980.- 24 aprel.

**121.İmanov, L.** Partiya qayğısının yeni təcəssümü: [SSRİ Xalq artisti Rəşid Behbudova "Sosialist Əməyi Qəhrəmanı" adı verilməsi haqqında] /L.İmanov //Ədəbiyyat və incəsənət.- 1980.- 30 may.- S.1.

**122.Tarladan mahnı səsi gəlir**: [R.Behbudovun rəhbərliyi ilə Mahnı Teatrının Dağlıq Qarabağa qastrol səfəri haqqında] //Bakı.- 1980.- 6 oktyabr.

## 1982

**123.Vahabzadə, B.** Qüdrətli sənətkar /Bəxtiyar Vahabzadə //Qobustan.- 1982.- №4.- S.61-62.

## 1983

**124.Əmirov, F.** İfaçılıq – tələbkarlıq: [Rəşid Behbudov haqqında] //Əmirov F. Musiqi aləmində.- Bakı, 1983.- S.105-125.

**125.Möhbəddin, S.** İllər, sizdə nəyim qaldı? //Möhbəddin S. Nağıllar yalan olmur: Hekayələr və oçerklər.- Bakı, 1983.- S.47-58.

**126.Vahabzadə, B.** Ürəyin səsi /Bəxtiyar Vahabzadə //Bakı.- 1983.- 7 yanvar.

## 1984

**127.Namazəliyev, Q.** Ümumxalq məhəbbətinin ifadəsi: SSRİ Ali Sovetinə deputatlığa namizəd: [R.Behbudovun İran səfəri haqqında] /Q.Namazəliyev //Ədəbiyyat və incəsənət.- 1984.- 2 mart.- S.4.

## 1985

**128.Abbasova, E**. Böyük sənətkar: Rəşid Behbudov – 70 /E.Abbasova //Kommunist.- 1985.- 14 dekabr.

**129.Abbasova, E**. Sənətkar qüdrəti: Rəşid Behbudov - 70 /E.Abbasova //Ədəbiyyat və incəsənət.- 1985.- 13 dekabr.- S.5.

**130.Hüseynov, R.** Onlar da uşaq olublar: [tanınmış musiqiçilər H.Məmmədov, Q.Qarayev, F.Əmirov, Ə.Bakıxanov, T.Quliyev, R.Behbudov, Ş.Ələkbərova, V.Mustafazadə, E.Mansurov, F.Əhmədova, Z.Xanlarova, H.Əliyev və M.Maqomayevin həyatından səhifələr] /R.Hüseynov //Qobustan.- 1985.- №4.- S.85-91.

**131.İmanov, D.** "Ömür nəğmə kimidir": [rejissor D.İmanovla Rəşid Behbudov haqqında çəkdiyi eyniadlı sənədli filmi haqqında söhbəti] /D.İmanov; söhbəti yazdı C.Yusifzadə //Ədəbiyyat və incəsənət.- 1985.- 13 dekabr.- S.5.



**132.İmanov, L.** Vokal sənətimizin zirvəsi: Rəşid Behbudov – 70 /L.İmanov //Bakı.- 1985.- 14 dekabr.

**133.Radionun səslər xəzinəsindən**: [görkəmli sənət adamları D.Şostakoviç, T.Xrennikov, Ş.Ramazanov, R.Behbudovun Ü.Hacıbəyov haqqında söylədikləri] //Qobustan.- 1985.- №3.- S.10-12.

**134.Rəşid Behbudov – 70** //Ədəbiyyat və incəsənət.- 1985.- 13 dekabr.- S.5.

**135.Rəşid Behbudova həsr olunur**: [C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında SSRİ Xalq artisti R.Behbudov haqqında çəkilən sənədli film haqqında] //Bakı.- 1985.- 13 sentyabr.

**136.Rüstəm, S**. Adın kimi: Dostum Rəşidə: Rəşid Behbudov – 70 /S.Rüstəm //Ədəbiyyat və incəsənət.- 1985.- 13 dekabr.- S.1.

**137.Rüstəmov, V.** Azərbaycan melodiyaları və boyaları: [Rəşid Behbudovun Qərbi Almaniyaya səfəri haqqında] /V.Rüstəmov //Kommunist.- 1985.- 13 oktyabr.

## 1986

**138.Bədəlbəyli, Ə.** Mahir müğənni /Ə.Bədəlbəyli //Ədəbiyyat və incəsənət.- 1986.- 24 oktyabr.- S.5.

**139.Əmirov, F.** Şan-şöhrətli sənətkar /F.Əmirov //Məktəblinin musiqi aləmi /tərt. ed. R.Şəfəq.- Bakı, 1986.- S.76.

**140.Nazim, S.** Xatirələrim... qeydlərim: Rəşid Behbudov – 70 /S.Nazim //Qobustan.- 1986.- №4.- S.28-31.

**141.Vahabzadə, B.** R.Behbudov haqqında //Vahabzadə B. Dərin qatlara işıq.- Bakı, 1986.- S.206-209.

**1989**

**R.Behbudovun vəfatı münasibətilə**

**142.Abbas, H.** Sənət meydanının Rəşidi getdi: [şeir] /H.Abbas //Kommunist.- 1989.- 11 iyun.

**143.Abdulla, A.** Vida sözü /A.Abdulla //Qobustan.- 1989.- №4.- S.94.

**144.Azaraşvili, V.** Görkəmli mahnı ustası: [çoxmillətli sovet mədəniyyəti xadimləri R.Behbudovun vəfatı ilə əlaqədar] /V.Azaraşvili, V.Qoqolaşvili, A.Rəhimov, V.Muxatov, N.Virkiliyus //Kommunist.- 1989.- 11 iyun.

**145.Bülbüloğlu, P.** Ölməzlik haqqı: [Azərbaycan SSR Mədəniyyət naziri Polad Bülbüloğlunun Rəşid Behbudovun dəfn mərasimində çıxışı] /Polad Bülbüloğlu //Kommunist.- 1989.- 14 iyun.

**146.Ələkbərova, Ş.** İnana bilmirəm /Şövkət Ələkbərova //Kommunist.- 1989.- 11 iyun.



**147.Həsənəlibəyov, N.** Musiqimizi böyükmiqyaslı görmək arzusundayam /N.Həsənəlibəyov //Ulduz.- 1989.- №12.- S.73-79.

